**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№372/3** **29 dekabr 2024-cü il**

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərinin 2024-cü il üzrə icra vəziyyəti barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 5.12-ci ““Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin icrası” bəndinin icra edilməsi məqsədilə Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov, H.Məmmədova) tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin icrası” barədə hesabat bəyənilsin (əlavə olunur).
2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov, H.Məmmədova) tapşırılsın ki, Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası barədə hesabatın 2025-ci ilin yanvar ayının sonunadək Koordinasiya Şurasına göndərilməsi təmin edilsin.
3. Bu qərarın və hesabatın mətnlərinin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**